# Qubadlı öz sakinlərini gözləyir

**Döyüşə-döyüşə, düşməni qova-qova irəliləyirdilər. Rəşadətli ordumuz Qubadlı ərazisinə girəndə Şükür Həmidov sevindiyindən üzü dağlara, düşmənin daldalandığı səmtə avtomatdan yaylım atəşləri açdı, “Qoy, zalımların bağırları lap yarılsın!” – dedi. Doğma Armudluya yaxınlaşdıqları gün Sumqayıtdakı valideynlərinə zəng edərək demişdi ki, tezliklə kəndimizin azad olunması xəbərini eşidəcəksiniz. Armudlu qarşıdakı təpələrin o üzündədir. Yalı aşsaq, görünəcək. Amma ertəsi gün...**

Səhifə ⇨ 7



## Qubadlının azad olunmasından 2 il ötür

# Qubadlı öz sakinlərini gözləyir

**(əvvəli 1-ci səhifədə)**

Milli Qəhrəman Şükür Həmidovla ilk və son görüşüm iki il əvvəl “Salnamə” studiyasının onun haqqında çəkdiyi “Aprel yüksəkliyi” sənədli filminin Nizami Kino Mərkəzində premyerası zamanı olub. Dediyi sözlər birbəbir yadımdadır: “Biz torpaqlarımızı azad edəcəyik. Buna heç bir şübhə ola bilməz. Doğma Qubadlıya da gedəcəyik”.

Şükür Həmidov məlum Aprel döyüşlərində Cocuq Mərcanlı tərəfdə “Ohanyan səddi” adlanan keçilməz maneəni 40 dəqiqəyə aşan igidlərin önündə gedib. Onların sürətli yürüşündən qorxan ermənilər pərən-pərən düşüblər. Hücumdan bir saat sonra orada artıq Azərbaycan bayrağı dalğalanıb. Lələtəpə yüksəkliyinin azad edilməsi əməliyyatı zamanı göstərdiyi şücaətə görə Şükür Həmidova vaxtından əvvəl polkovnik hərbi rütbəsi verilib. Prezidentin 22 aprel 2016-cı il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının Milli Qəhrəmanı” adına layiq görülüb. Füzulidə hərbi hissəyə komandirlik etdiyi zaman başlanan İkinci Qarabağ savaşına – qisas döyüşlərinə başlayıb.

Polkovnik Həmidov 1975-ci ildə Qubadlının Armudlu kəndində anadan olub. “Zəfər yürüşü”nün ilk günlərindən can atdığı o idi ki, ərazilərimizi düşməndən təmizləyə-təmizləyə gedib doğma kəndinə qovuşsun. Otuz il əvvəl nankor qonşularımızın işğal etdiyi Qarabağın uğrunda, necə deyərlər, ölümünə çarpışmaq, Şərqi Zəngəzuru, o cümlədən Qubadlını azad görmək onun ən böyük arzusu idi.

Döyüşə-döyüşə, düşməni qova-qova irəliləyirdilər. Rəşadətli ordumuz Qubadlı ərazisinə girəndə Şükür Həmidov sevindiyindən üzü dağlara, düşmənin daldalandığı səmtə avtomatdan yaylım atəşləri açdı, “Qoy, zalımların bağırları lap yarılsın!” dedi. Doğma Armudluya yaxınlaşdıqları gün Sumqayıtdakı valideynlərinə zəng edərək demişdi ki, tezliklə kəndimizin azad olunması xəbərini eşidəcəksiniz. Armudlu qarşıdakı təpələrin o üzündədir. Yalı aşsaq, görünəcək. Amma ertəsi gün... Oktyabrın 22-də, kəndə lap az qalmış qəlbi Vətən eşqi ilə alışıbyanan Şükür şəhid oldu. Ertəsi gün möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyev onun atası Nəriman Həmidovla telefonla danışıb başsağlığı verdi. Belə igid övlad yetişdirdiyinə görə ona minnətdarlığını bildirdi, Şükürün doğulduğu və azadlığı uğrunda həlak olduğu Qubadlı rayonunda onun adının əbədiləşdiriləcəyini vurğuladı. Ölümündən sonra Şükür Həmidovun döyüş xidmətləri “Zəfər” ordeni və “Vətən uğrunda” medalı ilə dəyərləndirildi.

...Düz bir il idi ki, Milli Qəhrəmanın atası Nəriman kişi Şükürün şəhid qanının töküldüyü yerə gedib orada torpağı öpməyi əhd eləmişdi. Nəhayət, onun arzusu həyata keçdi. Olduqca təsirli səhnə idi. Şəhid qəhrəmanın atası həm müqəddəs torpağı öpdü, həm də Qubadlıda Prezident İlham Əliyevlə görüşdə ürək sözlərini dedi. Şanlı Qələbəyə görə, şəhidlərin ruhuna böyük ehtirama görə minnətdarlığını çatdırdı.

Şükür Həmidovun şəhadətindən üç gün sonra Qubadlı canlar və qanlar bahasına azad olundu. Bu döyüşlərin çətinliyi onda idi ki, ermənilər çox güclü istehkamlar qurmuşdular, yüksəkliklərin hamısı onların əlində idi. Buna görə də ilk növbədə həmin yüksəkliklər alındı. Azərbaycan Ordusu misilsiz fədakarlıq, peşəkarlıq göstərdi. Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri bizim nəzarətimizə keçdi. Həmin gün, yəni, oktyabrın 25-də Qubadlı rayonunun mərkəzində Azərbaycan bayrağı ucaldıldı.

Rayon alınan gün Sumqayıtda məskunlaşmış qubadlılar hamılıqla icra hakimiyyətinin qarşısına toplaşdılar. Böyük qələbəlik idi. Hamı bir ağızdan “Yaşasın Ali Baş Komandan!”, “Azərbaycan Ordusuna eşq olsun!” şüarlarını səsləndirdi. 27 illik yurd həsrətinə son qoyulan Qubadlı sakinləri bayram edirdilər. Bakıdan 404 kilometr məsafədə yerləşən Qubadlının 44 gündən də az müddətdə azad edilməsi Silahlı Qüvvələrimizin tarixi hünər səhifələrindən bir kimi dəyərləndirildi.

Rayonun işğaldan azad olunmasının 1-ci ildönümü cənab İlham Əliyevin iştirakı ilə Qubadlıda keçirildi. Prezidentin dəvəti ilə oraya toplaşmış qubadlıların uçmağa qanadı yox idi. Həmin tarixi görüşdə dövlət başçısı onlara “Qubadlıya xoş gəlmisiniz!” – dedi. Bunu eşitməkdən böyük xoşbəxtlik tanımayan rayon ictimaiyyətinin nümayəndələri Prezidenti ürəkdən alqışladılar. Sevincdən gözləri yaşaranlar az olmadı.

Qarabağı, Şərqi Zəngəzuru düşmən tapdağından qurtarmış igidlərin sırasında Qubadlının Milli Qəhrəman Şükür Həmidov kimi yetirmələri də çox olub. Onlar Sumqayıtdakı Şəhidlər xiyabanında uyuyurlar. Buraya hər gün dəstə-dəstə ziyarətçi gəlirlər. Ölməz şəhidlər Həmzə Adıyev, Orxan Rəhimli, Məhəmmədəli Həsənzadə, Vüsal Allahverdiyev, İlkin İskəndərov, Ülvi Məhərrəmov, Rüfət Mustafayevin məzarları daim təzə-tər güllərlə bəzədilir. Ötən ilin iyununda peşə borcunu yerinə yetirən zaman minaya düşərək həlak olmuş AzTV-nin operatoru Sirac Abışov da orada dəfn edilib. Onların hər biri qəhrəmandır, təkcə Qubadlının deyil, bütöv Vətənimizin şöhrət salnaməsinə al qanları ilə pozulmaz sətirlər yazıb...

Prezident İlham Əliyev bir həftə öncə Qubadlıya səfərində “Bərgüşadçay” və “Zabuxçay” su anbarlarının layihələri ilə tanış olub, Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub. Dövlətimizin başçısına və birinci xanım Mehriban Əliyevaya Qubadlı şəhərinin Baş planı təqdim olunub. Ölkə rəhbəri ilə xanımı orada İşğal və Zəfər muzeylərinin təməlqoyma mərasimində iştirak ediblər.

İki ildir ki, Qubadlı azad nəfəs alır, dirçəldilir, əzəli sakinlərini qarşılamağa hazırlaşır. Prezident İlham Əliyev dəfələrlə bu rayonda olub, hər səfəri ilə ermənilərin viran qoyduğu yurd yerlərinə yeni nəfəs, hərarət, canlanma gətirib. Əslən Qubadlıdan olan bir jurnalist kimi bu səfərlərin bütün detallarını əzbər bilirəm. Amma ötən il dekabrın 24-də - öz ad günündə möhtərəm Prezidentimizin Qarabağa səfərinin təsirli bir anını heç unuda bilmirəm. Prezident İlham Əliyev işğaldan azad edilən Qubadlı rayonunun Qəzyan kəndinə səfəri zamanı ermənicə kənd adı yazılmış lövhəni görərək onu sökdürüb. Dövlət başçısı özü avtomobili idarə edərkən həmin lövhəni görüb və “ermənicə nəsə yazıblar orada” deyərək maşını saxlayıb. Daha sonra isə həmin lövhə söküləb. Prezident lövhəni tapdalayıb. Cənab İlham Əliyevi xalqa sevdirən həm də bu cür vətənsevərlik və təəssübkeşlik addımlarıdır.

Dövlət başçısı Qubadlı haqqında deyib ki, bu rayon beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonlarının arasında yerləşməklə, coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. “Şəhər Şimal (Kəlbəcər) və Cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla, kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır”.

Azad Qubadlı öz sakinlərini gözləyir. Onlar bu torpaqlarda bərpa-quruculuq işlərini yaxından izləyir və özləri də bu prosesdə iştirak etmək istəyirlər.

**M.MÜKƏRRƏMOĞLU,**
**“Xalq qəzeti”**